# AZƏRBAYCANDA ƏRZAQ İNFLYASİYASININ QİYMƏTLƏNDİRİLMƏSİ

## ARAŞDIRMA SƏNƏDİ



2023

DEMOKRATİK TƏŞƏBBÜSLƏR İNSTİTUTU

IDI

INSTITUTE FOR DEMOCRATIC INITIATIVES

# AZƏRBAYCANDA ƏRZAQ İNFLYASİYASININ QİYMƏTLƏNDİRİLMƏSİ

## Araşdırma sənədi

**Müəllif: Daşqın Şükürov**

**Ekspert: Rövşən Ağayev**

**Bakı - 2023**

# Mündəricat

1. Xülasə .......... 4
2. Giriş .......... 4
3. Azərbaycanda inflyasiya prosesləri .......... 5
4. İnflyasiyanı doğuran səbəblər .......... 9
5. Ərzaq inflyasiyası .......... 11
6. İnflyasiyanın hesablanmasında metodoji problemlər .......... 13
7. Nəticə və tövsiyələr .......... 17

# 1. Xülasə

Son üç il ərzində qiymət artımlarının kəskinləşməsi səbəbindən artıq ixtisasından, peşəsindən asılı olmayaraq hər kəsin az da olsa inflyasiya termini haqqında məlumatlı olduğunu deyə bilərik. Pandemiya və onun yaratdığı məhdudiyyətlər, müharibələr, iqlim dəyişikliklərinin təsirləri Azərbaycan iqtisadiyyatında da yaxından hiss edilir.

Bu tədqiqatın aparılmasında məqsəd Azərbaycanda inflyasiyanın ikirəqəmli artımının ərzaq qiymətlərində özünü necə göstərməsinin araşdırılması, onun insanların rifah səviyyəsinə təsirini qiymətləndirməkdən ibarətdir. Tədqiqat zamanı Dünya Bankı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Ümumdünya Ticarət Təşkilatı (ÜTT), İqtisadi Əməkdaşlıq və İnkşaf Təşkilatı (OECD) kimi nüfuzlu qurumların məlumat bazalarından, Dövlət Statistika Komitəsinin,  Mərkəzi Bankın, Hesablama Palatasının,  Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin dərc etdiyi məlumatlardan geniş istifadə olunub.

Sənədin ilk hissəsində infliyasiyanın nəzəri əsasları, onun mövcud vəziyyəti haqqında, həmçinin ölkənin İstehlak Qiymətləri İndeksinin inflyasiyanı müəyyən edən əsas göstərici kimi xüsusiyyətləri haqqında məlumumatlar əks olunub. DSK-nın inflyasiyanın ümumi göstəricisi ilə bağlı açıqladığı rəqəmlərin fərdi məhsullar üzrə necə dəyişməsi göstərilib. Həmçinin region ölkələrindəki inflyasiya göstərciləri, onlarən inflyasiya ilə mübarizə tədbirləri haqqında məlumat verilib.

Tədqiqatın ikinci bölümündə qlobal miqyasda və ölkədə inflyasiyanı doğuran amillər, onların mənfi təsirləri haqqında məlumatlar öz əksini tapıb. İnflyasiyanı doğuran amillər kimi, son dövrlərdə qlobal miqyasda baş verən mənfi təsirlərin, xüsusuilə də Rusiya-Ukrayna müharibəsinin ərzaq qiymətlərinə artırıcı təsiri, yanacaq qiymətlərinin artımı kimi kəskin inflyasiya yaradan proseslər öyrənilib.

Üçüncü hissədə inflyasiyanın yaranmasında ərzaq qiymətlərinin təsiri, Azərbaycanda inflaysiyanı yaradan daxili səbəblər, dövlətin inflyasiyanın azaldılması siyasətindəki çatışmazlıqları görə bilərik.

Sonuncu hissədə isə Azərbaycan və dünya təcrübəsində inflyasiyanın hesablanmasında mövcud olan metodoloji problemlər, Laspeyres, Paşe və Fişer indekslərinin dünya təcrübəsində istifadəsi, onlar arasındakı fərqlər, hesablama üsulları haqqında məlumatlar öz əksini tapıb.

# 2. Giriş

Azərbaycanda qiymətlərin səviyyəsindəki dəyişikliklərin əsas səbəblərindən biri dünya bazarlarında enerji daşıyıcılarının qiymətlərindəki volatilliklə bağlıdır. Oxşar proseslər 2015-ci ildə qeydə alınan devalivasiya dövründə də müşahidə edilib. Həmin vaxt neft qiymətlərinin 50-55 dollaradək ucuzlaşması Mərkəzi Bankın strateji valyuta ehtiyatlarının azalması ilə nəticələndi. Neft gəlirlərinin itirilməsinə görə Mərkəzi Bankın manatın məzənnəsini saxlamaq cəhdləri uğursuzluqla nəticələndi. İl ərzində valyuta ehtiyatlarının 9 milyard dollardan çox hissəsini xərcləməsinə rəğmən milli valyuta iki dəfə devalvasiyaya məruz qaldı və dəyərinin yarısını itirdi. Hələ 2015-ci il devalvasiyasında məlum oldu ki, dövlət büdcəsinin neftdən asılılığı 90 faizdən yuxarıdır və qeyri-neft sektorunun inkşafı çox zəif səviyyədədir. Həmin il üçün inflyasiya

təkrəqmli həddə olsa belə, ərzaq qiymətləri kəskin şəkildə artdı. Bu da birbaşa insanların alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə nəticələndi. İnflyasiya proseslərindən ən çox əziyyət çəkənlər həmişə olduğu kimi əhalinin daha aztəminatlı hissəsi oldu.

2015-2016-cı illərdə ərzaq qiymətlərində müşahidə edilən yüksək artım 2018-2019-cu illərdə normallaşmağa başladı. Bunun ardınca dünya 2020-ci ildə ölkə iqtisadiyyatlarının qapanmasına səbəb olan qlobal pandemiya ilə üzləşdi. Dünyada dəyər zəncirindəki qırılmalar idxal-ixrac əməliyyatlarında təsirini göstərdi və yenidən yüksək inflyasiyaya yol açdı. Bu illərdə hətta Azərbaycanda ərzaq inflyasiyası ikirəqəmli həddə çatdı. 2020-ci ildə baş verən İkinci Qarabağ müharibəsi, 2022-ci il Rusiya - Ukrayna münaqişələri ölkədə inflyasiyanı tətikləyən başlıca amilə çevrildi. Şübhəsiz ki, inflyasiyanı, xüsusi ilə də ərzaq qiymətlərindəki artımları təkcə qlobal problemlərlə əlaqələndirmək doğru olmaz və daxili amillərin, xüsusilə də dövlətin apardığı monetar, fiskal siyasətin də bu proseslərdə mühüm rolu danılmazdır. Tədqiqatda məhz bu amillərə toxunulmuş, həmin amillərin inflyasiyaya təsirləri öyrənilib.

Yuxarıda da vurğuladığımız kimi inflyasiyanın yaratdığı ən mənfi təsirlərdən biri insanların alıcılıq qabiliyyətlərinin aşağı düşməsidir. Hökumət əhalinin inflyasiyanın mənfi təsirlərindən qorunması üçün aşağıdakı mexanizmlərdən yararlanmağa çalışıb:

1) minimum əmək haqqının artırılması;

2) dövlət büdcəsinin vəsitlərihesabına maaş, pensiya, təqaüd və sosial müavinətlərin məbləğinin artırılması;

3) yaşayış minimumunun dəyərinə ildə bir dəfə baxılması.

Son beş ildə minimum əmək haqqı məbləği üç dəfəyə yaxın artıb, lakin bu dövrdə istehlakçı qiymətləri indeksinə (İQİ) nəzər yetirdikdə inflyasiyanın əhalinin adambaşınna düşən gəlirlərinin artım tempini az qala 5-6 dəfə üstələdiyi görünür.

Əmək qabiliyyətli yaşda əhali üçün rəsmi yaşayış minimumu 2016-cı ildə 146 manat, 2022-ci ildə 220 manat təşkil edib – yəni, bu dövr ərzində 74 manatlıq və ya 50%-lik artım var. Lakin rəsmi statistikanın 2016-cı və 2022-ci illər üzrə məhsul və xidmətlərin qiymət monitorinqi əsasında 20 ən zəruri qida məhsulunun qiymətləri və 3 kommunal xidmət növünün son 6 il üzrə qiymət artımı 75% ətrafında olub.[1] Bundan başqa, əhalinin orta gəlirləri də daha zəif templə artıb. Belə ki, 2016-2021-ci illərdə adambaşına nominal gəlirlər cəmi 21% artmışdı və 2022-ci il üzrə gözlənilən 13-14%-lik mümkün artım da nəzərə alınsa, qiymətlərin gəlirlərdən az qala iki dəfə sürətlə artdığı aydın görünür.

# 3. Azərbaycanda inflyasiya prosesləri

Dünya bazarlarında enerji daşıyıcılarının kəskin ucuzlaşması səbəbindən büdcə gəlirlərinin azalması və milli valyutaya qarşı təzyiqlərin yaranması fonunda 2014-cü ilin sonlarından

[1] https://bakuresearchinstitute.org/qiymetler-ehalinin-qazanclarindan-ne-qeder-suretle-artir-gelirlerin-ve-inflyasiyanin-dinamikasinin-statistik-analizi/

etibarən Mərkəzi Bankının valyuta ehtiyatları azalmağa başladı. Mərkəzi Bankın valyuta bazarlarına öz ehtiyatları vasitəsi ilə müdaxilə etməsinə baxmayaraq 2015-ci ildə manat dollara qarşı dəyərini 50%-dək itirdi. Milli valyutanın ucuzlaşması qiymətlərə ciddi təsir etdi, xüsusilə də idxal olunan məhsulların dəyərində kəskin bahalaşma baş verdi.

Bu dövrdə ərzaq məhsullarının qiymətlərinin artmasını ölkədə inflyasiyanın artmasını gətirib çıxaran əsas səbəblərdən biri kimi göstərmək olar. Müasir dövrün əsas makroiqtisadi problemlərindən biri olan inflyasiya qiymətlərin ümumi səviyyəsində davamlı artmasını, gəlirlərin azalmasını və nəticə etibarı ilə həyat səviyyəsinin pisləşməsini şərtləndirir. Yüksək inflyasiya əhalinin alıcılıq qabiliyyətinə mənfi təsir etsə də, inflyasiya səviyyəsinin normal həddə olması bazarların canlanması üçün zəruridir. Bu baxımdan inflyasiya səviyyəsinin sıfıra bərabər olması iqtisadiyyat üçün müsbət hal sayıla bilməz. Qiymətlərin artmadığı bir bazar iqtisadiyyatında heç kim məhsul əldə etməyə tələsmir. Çünki, istehlakçılar belə vəziyyətdə hesab edirlər ki, məhsul qiymətləri qalxmayacaq. Belə vəziyyət istehlak qərarlarının təxirə salınması səbəbindən istehsalı azalda və nəticədə iqtisadiyyatda durğunluğa gətirib çıxara bilər.

2022-ci il üçün rəsmi inflyasiya göstəricisi 13,9 faiz olaraq açıqlanıb. Ölkədə qida məhsullarında inflyasiya səviyyəsi 20 faizə çatıb.[2] Bu, qlobal maliyyə böhranının baş verdiyi 2008-ci ildən bəri ölkədə qeydə alınan ən yüksək inflyasiya göstəricisidir.

Azərbaycanda son 20 ildə inflyasiya səviyyəsi bir-birindən kəskin fərqlənib. 2003-cü ildə 2,2 faiz olan inflyasiya 2008-ci il qlobal maliyə böhranına qədər ildə təxminən 3 faiz artıb. İnflyasiya səviyyəsi 2005-cı ildə 9,7 faizdən 2006-cı ildə 8,3 %-ə düşdüyü halda, 2007-ci ildə iki dəfə artaraq 16,7 faizə çatıb. Qlobal maliyyə böhranının müşahidə olunduğu ildə Azərbaycanda inflyasiya səviyyəsi 1996-cı ildən sonra maksimum həddə çataraq 20,8 faizə bərabər olub. 2009-cu ildən etibarən normallaşmağa başlayan inflyasiya 2008-dən sonra ilk dəfə devalvasiyanın təsiri nəticəsində 2016-cı ildə ikirəqəmli ədədlə ifadə olunub və 2016, 2017-ci illərdə müafiq olaraq 12,4 və 12,9 faiz təşkil edib. 2021-ci ildə 6,7 faziə bərabər olan inflyasiya 2022-ci ildə 13,9 faizə çatıb.

**Qrafik 1: Azərbaycanda inflyasiya göstəriciləri (2007-2022)**




İnflyasiyanın səviyyəsini ölçmək üçün qiymət səviyyəsi müəyyənləşdirilməlidir. Bunun üçün adətən iki qiymət indeksindən istifadə olunur. Bunlar ÜDM deflyatoru və İstehlak Qiymətləri İndeksidir (İQİ). ÜDM deflyatoru nominal ÜDM-in real ÜDM-ə nisbəti şəklində hesablanır. ÜDM deflyatoru buraxlışın yəni iqtisadiyyatda istehsal edilmiş son məhsulların orta qiymətlərini

[2] https://www.stat.gov.az/news/source/Press-12_22.pdf

ölçür, lakin istehlakçılara maraqlı olan tərəf istehlak etdikləri orta qiymətdir. Bu iki göstərici bərabər olmayada bilər. Bu əsasən aşağıdakı səbəblərdən qaynaqlanır:

- ÜDM-dəki bəzi məhsullar istehlakçılara yox, şirkərtərə, xarici ölkələrə satılır.
- İstehlakçıların aldığı bəzi məhsullar ölkə daxilində istehsal edilmir, xaricdən idxal olunur.

İstehlakin orta qiymətini yəni əhalinin yaşayış xərcini ölçmək üçün əsas makroiqtisadi göstərici kimi İstehlak Qiymətləri İndeksindən istifadə olunur. Bu iki göstəricinin hansının inflyasiyanın hesablanmasında daha effektiv olması sualına, ÜDM deflyatorunun istehsal olunmuş məhsulların qiyməti, İQİ-nin isə istehlak olunmuş məhsulların qiyməti əsasında hesablandığına əsasən təyin edə bilərik. Azərbaycanında qida məhsulları ilə özünü təminat səviyyəsinə baxdıqda əsasən idxaldan asılı olduğnu görə bilərik. Buna görə də İQİ-nin inflyasiya səviyyəsinin ölçülməsində ölkəmiz üçün ən yaxşı üsul olduğunu deyə bilərik.

İnflyasiya "İstehlak Qiymətləri İndeksi" vasitəsilə ölçülür və ərzaq məhsulları, qeyri-ərzaq məhsulları və xidmətlər olmaqla üç əsas komponent üzrə hesablanır. Dövlət Statistika Komitəsinin İstehlak Qiymətləri İndeksinin ərzaq məhsulları üzrə açıqladığı statistikaya nəzər salsaq görərik ki, ərzaq məhsullarında qiymət artımı məhsulun növünə görə dəyişkəndir. [3]Məsələn, çörək məmulatlarının 2022-ci ilin yanvar-oktyabr ayları üzrə İQİ-si 2021-ci ilin yanvar –oktyabr aylarına nisbətən 20,6 faiz artıb. Çörək məmutlarının 2022-ci ildəki artımına dünyada ərzaq qiymətlərinin bahalaşması, xüsusi ilə idxaldan asılı olduğumuz Rusiya Federasiyasındakı müharibə ilə əlaqədar yaranan problemlər təsir edib.

Digər məhsul növlərinə nəzər yetirdikdə, bu göstəricinin ət və ət məhsulları üzrə analoji dövr üçün 11,1 faiz, tərəvəz məhsulları üzrə isə 60,2 faiz olduğunu müşahidə edə bilərik.

**Cədvəl 1: Seçilmiş məhsullar üzrə orta bazar qiymətinin dəyişməsi**

| Məhsulun adı | Ölçü vahidi | 01.11.2022 | 01.11.2021 | Bahalaşma |
|---|---|---|---|---|
| **Çovdar çörəyi** | 1kq | 2,03 | 1,29 | 57% |
| **Əla növ buğda çörəyi** | 1kq | 1,34 | 0,88 | 52% |
| **Kartof** | 1kq | 1,33 | 0,87 | 51% |
| **Günəbaxan tumları** | 1kq | 7,62 | 5,32 | 43% |
| **Qurudulmuş ərik** | 1kq | 11,92 | 8,44 | 41% |
| **Qarabaşaq yarması** | 1kq | 3,94 | 2,83 | 39% |
| **Şokolad və təbii şokolad məmulatları** | 100 qr | 2,02 | 1,49 | 36% |
| **Qarğıdalı yağı** | 1 litr | 7,46 | 5,53 | 35% |
| **Günəbaxan yağı** | 1 litr | 5,74 | 4,27 | 34% |
| **Əridilmiş pendir** | 1kq | 20,92 | 15,68 | 33% |
| **Quru noxud** | 1kq | 5,36 | 4,12 | 30% |
| **Mərci** | 1kq | 3,92 | 3,06 | 28% |
| **Süfrə marqarini** | 1kq | 5,89 | 4,60 | 28% |
| **Paxlava** | 1kq | 12,57 | 10,02 | 26% |

[3] https://www.stat.gov.az/news/source/Press-12_22.pdf

| | | | | |
|---|---|---|---|---|
| **Meyvəli-giləmeyvəli karamel** | 1kq | 6,09 | 4,85 | 26% |
| **Şəkər tozu** | 1kq | 1,84 | 1,47 | 25% |
| **Sosiska, Sardelka** | 1kq | 13,40 | 10,68 | 25% |

Cədvəl İQİ-nin ərzaq məhsulları üzrə artımını göstərir. Hər bir məhsula ayrı-ayrı baxdıqda statistik məlumatlarda bəzi ərzaq məhsullarında qiymət artımını 50-60 faizə qədər olduğunu görmək olar. Məsələn, çovdar çörəyinin 1 kiloqramı üçün 2021-ci ilin noyabrında 1,29 man xərcləndiyi halda 2022-ci ilin eyni dövründə 2 manat 3 qəpik xərclənib. Bir il ərzində təkcə çovdar çörəyi üçün inflyasiya səviyyəsi 57%-ə bərabər olub. Bu göstərici əla növ buğda çörəyi, kartof, günəbaxan tumu, qurudulmuş ərik, qarabaşaq yarması kimi məhsullarda müvafiq olaraq 52, 51, 43, 41 və 39 faiz təşkil edib. Cədvəldən də göründüyü kimi, məhsul qiymətlərində ən çox artım ən çox istehlak etdiyimiz, ən çox pul xərclədiyimiz məhsullardır ki, bu da insanların sosial durumuna birbaşa mənfi təsir göstərir.

Ümumiyyətlə, həyat səviyyəsinin müəyyən edilməsinin bir neçə göstəricisi var ki, onlardan biri də ev təsərrüfatlarının istehlak xərclərinin tərkibidir. Əhalinin öz gəlirlərini nəyə xərcləməsindən asılı olaraq insaların həyat səviyyəsini müəyyən etmək mümkündür. Burda əsas göstərici ümumi xərclərdə qida məhsullarının payıdır. İnkşaf etmiş ölkələrdə insanlar əsasən qeyri-qida məhsullarına və xidmətlərə pul xərclədiyi halda, inkişaf etməkdə olan ölkələrdə əhali gəlirlərinin əsas hissəsini qidaya yönəldir. 2022-ci il üçün Azərbaycanda əhalinin istehlak xərclərinin tərkibinə baxdıqda ərzaq məhsullarına  daha çox pul xərcləndiyini görə bilərik. (Diaqram 2)[4]

**Diaqram 2. 2022-ci ilin yanvar-oktyabr aylarında pərakəndə ticarət dövriyyəsinin sturukturu**




Diaqramdan göründüyü kimi, 2022-ci ildə əhali öz gəlirlərinin 51,6 faizini ərzaq məhsullarına sərf edib. Bura alkoqollu içkiləri və tütün məmulatlarını əlavə etsək, bu göstərici 56,2%-ə yüksələr. Bu da o deməkdir ki, ölkədə ərzaq inflyasiyasının 21%-lik artımı vətəndaşları ciddi maddi sıxıntılarlarla üz-üzə qoymasına gətirib çıxara bilər.

İndi region ölkələrində inflyasiya durumuna qısaca nəzər yetirək:

[4] https://www.stat.gov.az/news/source/DT_PRESS_10_2022.pdf

Azərbaycan və qonşu ölkələr istər 2015-ci ildə baş vermiş devalvasiyasından, istər 2020-ci ildə dünyanı bürüyən pandemiyadan, istərsə də 2022-ci il başlamış Rusiya-Ukrayna müharibəsində ən çox əziyyət çəkən ölkələrdən olub.

Rusiyada 2022-ci ilin aprel ayı üçün ərzaq inflyasiyası[5] 18,75 %, qeyri-ərzaq inflyasiyası 20,21% təşkil edib. 2014-cü ildə 7,8 % olan inflyasiya 2015-ci ildə 15,5 faizə yüksəlib. Həmin il üçün ərzaq inflyasiyası 24,1 faizə çatıb. 2016 və 2017-ci illərdə inflyasiya müvafiq olaraq 5,38 və 2,52%-ə qədər enib. Müharibənin ilk günlərindən Rusiyada ərzaq qiymətlərinin qalxması müşayiət olunub. Ölkədə 2022-ci ilin mart ayında bəzi meyvə-tərəvəz növlərinin qiymətlərinin artımı orta hesabla 14,22% olub. Hər bir məhsul üçün qiymət artımına baxdıqda: soğan - 50,1%, ağ kələm - 39,8%, banan - 31,5%, yerkökü - 29,5%, təzə pomidor - 27,4%, şəkər 44,0%, duz 14,2%, düyü 12,9%, qarabaşaq yarması 10,2%, günəbaxan yağı 7,2% bahalaşıb.

Türkiyədə inflyasiya səviyyəsi 2017-ci ildən bəri ikirəqəmli həddədir[6]. 2022-ci ilin sentyabrında rəsmi illik inflyasiya 83%-i keçib. Nəqliyyatdan sonra ən yüksək qiymət artımı qidada olub. Ərzaq qiymətləri son 1 ildə 92% artıb. Gürcüstanda da 2022-ci ildə yüksək inflyasiya göstəriciləri qeydə alınıb.[7] Qiymət artmı 2021-ci ilin oktyabrı ayı ilə müqayisədə 11% yüksək olub. Əvvəlki üç ilin oktyabr ayı ilə müqayisədə 2022-ci ilin oktyabrında ümumi qiymət səviyyəsi 21% yüksəkdir. Ərzaq qiymətləri 31% bahalaşıb. İstehlak mallarının qiymətlərində illik 11% artımın yarısı ərzaq qiymətlərindəki artımların payına düşüb. Qidadan sonra ikinci böyük artım xidmət sektorunda olub. Otellər, kafelər, restoranlar qrupunda yüksək artımın səbəbi olaraq Rusiya vətəndaşlarının müharibə fonunda hərbi səfərbərlikdən və ya sanksiyalardan yayınmaq üçün öz ölkəsini tərk edərək Gürcüstan və digər MDB ölkələrinə sığınması göstərilir.

# 4. İnflyasiyanı doğuran səbəblər

Son dövlər Azərbaycanda ərzaq qiymətlərinin xeyli bahalaşması müşahidə olunur. Bu bahalaşma 2015-2016-cı illərdə baş vermiş devalvasiyasından sonra ən yüksək həddədir. Ərzaq qiymətlərinin artması qlobal və daxili səbəblərdən qaynaqlanır.

Qlobal miqyasda inflyasiyanın artmasının ən böyük səbəbi 2020-ci ildəki **pandemiya** ilə bağlı məhdudiyyətlərdir. Pandemiya istehsal, emal, pərakəndə satış da daxil olmaqla qida tədarükündə problemlər yaratdı. Qapanmalara gedən ölkələrdə insanların evdə qalmağa məcbur edilməsi restoran və digər iaşə obyektlərinin öz müştərilərini itirməsi ilə nəticələndi. Ərzaq mağazaları isə əksinə güclü müştəri axını ilə üzləşdi. Nəticədə bəzi mağaza və dükanlarda məhsul qıtlğı yaşandı və bu da məhsulların qiymətində artıma rəvac verdi.

Eyni zamanda insanların təsərrüfat fəaliyyəti ilə məşğul olması çətinləşdi, sahələrdən məhsul yığımında problemlər yarandı. Digər tərəfdən daşınma xərclərinin artması logistik problemləri ortaya çıxardı ki, bu da quru, hava və dəniz yolları ilə daşınmalarda qiymətlərin kəskin artmasına gətirib çıxardı. Bu isə məhsulların maya dəyərinin qalxmasına birbaşa təsir etdi.

[5] https://www.worlddata.info/europe/russia/inflation-rates.php
[6] https://data.tuik.gov.tr/Kategori/GetKategori?p=Enflasyon-ve-Fiyat-106
[7] https://www.geostat.ge/en/modules/categories/26/cpi-inflation

Bu dövrdə malların əksəriyyətinin beynəlxalq daşınma vasitəsi konteynerlərlə olduğu üçün böyük gəmilərin daşınma xərclərində kəskin artım müşahidə olundu. Daşınma xərclərinin nə qədər artması FBX Qlobal Konteyner Daşınma İndeksini vasitəsi ilə müəyyən olunur. 2020-ci ilin fevral ayı ilə müqayisədə bu indeks 8 dəfə artaraq hər konteyner üçün təxminən 1300 dollardan 2021-ci ilin sentyabrında 11000 dollara qədərbahalaşıb. Daşınma marşrutlarının fərqliliyi ilə xərclər də dəyişir. Məsələn, Çindən bir konteynerin ABŞ-ın Qərb Sahillərinə göndərilməsi xərcləri 2020-2022-ci illərdə 12 dəfədən çox artaraq 1300 dollardan 16000 dollara yüksəlib.[8]




**Qrafiq 1. FBX Qlobal Konteyner İndeksi (2017-2022)**

Ərzaq qiymətlərinin artmasına təsir edən digər bir amil **iqlim dəyişiklikləridir**. İqlim dəyişmələri artıq baş verir və onun fəsadları özünü biruzə verir[9]. Belə ki, İqlim dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupunun 4-cü Hesabatında göstərildiyi kimi son 100 ildə Yer kürəsində orta illik temperatur 0,80$^{o}$ C artıb, Okeanın səviyyəsi 15-25 sm qalxıb və okeanların qızma dərinliyi 3000 metrə çatıb. Azərbaycan da qlobal iqlim dəyişikliklərinin təsirindən kənarda qalmayıb. Son 100 ildə Azərbaycan ərazisində orta illik temperaturlar 0,4-1,3$^{o}$ C-yə qədər artıb. Temperatur artımı regionlardan asılı olaraq qeyri-bərabər paylanır. Belə ki, Böyük Qafqazın yüksək dağlıq ərazilərində orta illik temperaturun 1,1-1,3$^{o}$ C artması müşahidə olunub. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin açıqladığı məlumata görə, hazırda Azərbaycanda kənd təsərüfatına yararlı 1 milyon 400 min hektar torpaq sahəsi mövcuddur və bu torpaqların beşdə birində şoranlaşma mövcuddur.

Ərzaq qiymətlərinin qalxmasının digər bir böyük səbəbi **Rusiya-Ukrayna münaqişəsidir**. 2022-ci ilin fevralından Qara Dəniz regionunda artan gərginlik, Rusiyanın Ukraynanın ərazisini işğal etməyə başlaması, Dünyada və Azərbaycanda qiymət artımlarına, tədarük zəncirinin pozulmasına və pandemiyadan sonra bərpa olunmağa çalışan qlobal ərzaq bazarına risklərin yaranmasına səbəb oldu. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) hesabatında dünya buğda ixracının 30 faizindən çoxunun təkcə Ukrayna və Rusiya Federasiyasının payına düşdüyünü açıqlayıb.

[8] https://fbx.freightos.com/
[9] http://eco.gov.az/az/hidrometeorologiya/iqlim-deyismeleri

Ukrayna və Rusiya iyulun 22-də Qara dəniz limanlarında ilişib qalmış 20 milyon ton taxılın buraxılması haqqında saziş imzalayıblar. McKinsey & Company-ə görə, buraxılış bazara bir qədər rahatlıq gətirsə də uzunmüddətli fəsadlar hələ də qalmaqdadır. McKinsey şirkəti Ukraynada 2022-2023-cü illərdə taxıl məhsulunun normal səviyyədən - 30 milyon tondan çox aşağı olacağını proqnozlaşdırır.

Ukrayna əsas buğda istehsalçısı rolunu yerinə yetirə bilmədiyi üçün dünya qıtlıqla üzləşib. Qısa tədarük buğdanın qiymətinin daha yüksək olması deməkdir və bu, un və nişasta kimi əsas inqrediyentlərin emalını daha baha edir. Azərbaycanın da buğda tələbatının idxaldan asılı olduğunun nəzərə alsaq Rusiya-Ukrayna münaqişəsinin ölkədə arzaq qiymətlərinə təsirsiz ötüşmədiyini anlaya bilərik. Təkcə buğdanın timsalından baxdıqda Dövlət Statistika Komitəsinin "ərzaq balansları" statistikasında Azərbaycanın ərzaqlıq buğda ilə özünü təminetmə səviyyəsinin 50%-dən aşağı olduğunu görə bilərik.[10]

Qiymət artımlarının sürətlənməsinə **Rusiyaya qarşı sanksiyalar** da rol oynayıb. Ukraynadakı müharibə səbəbindən Qərb ölkələri neft və qaz da daxil olmaqla, Rusiya idxalına qadağalar tətbiq edib. Ən son İQİ hesabatına görə, enerji qiymətləri 2021-ci ilin avqustundan 2022-ci ilin avqustuna qədər 23,8% artıb. Yüksək enerji qiymətləri pandemiya səbəbindən bahalaşmış ərzaq istehsalını və nəqliyyat xərclərini daha da artırır. Gübrə xərclərinin artması da ərzaq qiymətlərinin artmasını stimullaşdırır. 2021-ci ilin əvvəlindən fermerlər artan gübrə xərclərinin öhdəsindən gəlmək üçün mübarizə aparırlar. Amerika Ferma Bürosu Federasiyasının məlumatına görə, bəzi ərazilərdə qiymətlər Ukraynadakı müharibədən sonra 300%-dən çox artıb. Rusiya sanksiyaları artıq mövcud olan gübrə çatışmazlığını daha da pisləşdirir. Nəzərə almaq lazımdır ki, Rusiya gübrələrin əsas ixracçısıdır və dünya gübrə ixracının təxminən 30%-i Rusiyanın payına düşür.

# 5. Ərzaq inflyasiyası

2022-ci ilin sentyabr ayında ərzaq məhsullarının ümumi illik inflyasiyanın formalaşmasında payı 60%-ə bərabər olub.[11] Yəni, ərzaq qiymətlərinin artması inflyasiyanın bu cür çox olmasında əsas amildir. Buna görə də inflyasiyanın müəyyən edərkən ən birinci qiymət artımlarının səbəbləri, onların inflyasiyaya təsirləri araşdırılmalıdır. Əvvəlki bölmədə inflyasiyanın yaranmasında xarici və qlobal səbəbləri müəyyən etməyə çalışdıq. İndi inflyasiyanın yaranmasında daxili amillərini nəzərdən keçirək.

**Ölkəmizdə inflyasiyanının yaranmasının daxili səbəbləri aşağıdakılar sayıla bilər:**

- Pul kredit və vergi sahəsində düzgün olmayan siyasətin aparılması. Hökumətlərin düzgün olmayan monetar və fiskal siyasəti nəticəsində qiymətlər yüksək olaraq qalır. Bəzi müəssisələr yüksək faiz dərəcəsini ödəmək üçün əmtəələrin qiymətini artırır. Həmçinin düzgün olmayan vergi siyasəti nəticəsində, yəni mənfəətdən alınan verginin artırılması istehsala sərmayə qoyuluşunu azaldır. Buna müvafiq olaraq istehsal azalır. Belə olan halda istehsal azalır əmtəələrin qiyməti artmağa başlayır.

[10] https://www.stat.gov.az/source/food_balances/

[11] https://uploads.cbar.az/assets/d318a6c9c3d5822123250470e.pdf

- Pul tədavülü qanununa əməl olunmaması. Real iqtisadiyyatda pulun miqdarı heç də pul tədavülü qanununun tələblərinə uyğun tənzimlənmir. Məlumdur ki, pul tədavülü Mərkəzi Bankın inhisarındadır. Zəruri halda dövlət pul kütləsinin təklifini artırır bu da inflyasiyaya səbəb olur.
- Büdcə kəsirinin mövcudluğu. Hər bir ölkənin büdcəsində az və ya cox dərəcədə büdcə kəsri problemi mövcuddur. Dövlət gəlirlərinin xərclərdən az olması nəticəsində dövlət büdcəsinin kəsirinin artması və büdcə kəsrini örtmək üçün tədavülə yeni pul kütləsinin buraxılması inflyasiyaya səbəb olur.

Bundan başqa inflyasiya yaradan səbəblərindən biri də yanacağın bahalaşmasıdır. Bu amil sərnişindaşıma və yükdaşıma nəqliyyatına xüsusi ilə təsir edir. Xüsusən də yüklərin daşınma xərclərinin artması kənd təsərrüfatı texnikasından istifadə xərclərinin artırır ki, bu da məhsulun birbaşa maya dəyərinə təsir edır. Maya dəyərinin qalxmasının bazara çıxarılan məhsulların qiymətində özünü açıq şəkildə göstərir. Məsələn, 2022-ci il üçün tərəvəzlərin İstehlak Qiymətləri İndeksinin 2021-ci illə nisbətdə 60,2 faiz artımı buna sübutdur.

Ərzaq qiymətlərinin artımında digər vacib amil gömrük rüsumlarının səviyyəsinin yüksək olmasıdır. Qonşu ölkələrlə müqaisə etdikdə Azərbaycanın idxal məhsullarına yüksək gömrük rüsumu tətbiq edən ölkə olduğunu söyləyə bilərik[12]. Ümumdünya Ticarət Təşkilatının (ÜTT) açıqladığı "World Tariff Profiles 2022" hesabatında 2021-ci ildə Azərbaycanın "sadə orta ən əlverişli rejim" gömrük tarifi 8.5 faizə bərabər olub. Müqayisə üçün bildirək ki, digər Cənubi Qafqaz ölkələrindən Gürcüstanda bu göstərici cəmi 1.4 faizə bərabərdir. Yəni, Azərbaycana nəzərən 6 dəfə daha aşağı. Ermənistanda isə müvafiq göstərici Azərbaycanla müqayisədə 26 faiz daha az – 6.3 faizə bərabərdir.

ÜTT-nin açıqladığı hesabatda gömrük rüsumları kənd təssərüfatı və qeyri-kənd təssərüfatı olmaqla iki formada təsnifləşdirilib. Həmin hesabata görə, Azərbaycanda 2021-ci ildə kənd təsərüfatı məhsulları üçün tətbiq olunan "sadə orta ən əlverişli rejim" tarifi 13,9 %-ə bərabər olub. Bu göstərici Ermənistanda 8,1 faizə, Gürcüstanda 6 faizə, Rusiyada isə 9,1 faizə bərabərdir.

Tətbiq olunan gömrük rüsumlarında ən yüksək payın kənd təsərüfatı məhsulları, tütün və alkoqollu içkilər təşkil etdiyini nəzərə alsaq, ölkədəki ərzaq inflyasiyasının yüksək həddə olduğuna təəccüblənməyə bilərik. Gündəlik istehlak etdiyimiz kənd təssərüfatı mallarının çoxu ölkədə istesal edilə bilər, lakin onların əksəriyyətinin gübrəsi idxal olunur. Gömrük rüsumlarının bu cür yüksək olması, logistik fəaliyyətdəki qiymət artımları hazırda ərzaq inflyasiyasının yaranmasında əsas səbəblərdəndir. Müxtəlif məhsul qrupları üzrə orta gömrük rüsumlarına baxdıqda ən yuxarı gömrük rüsumlarının ərzaq məhsullarında müşahidə edildiyini görə bilirik:

**Cədvəl 2: Məhsul qrupları üzrə orta gömrük rüsumları**

[12] https://agora-az.org/gomruk-rusumlarinin-az%c9%99rbaycanda-qiym%c9%99t-artimlarina-t%c9%99siri-v%c9%99-imkanlar

| Məhsul qrupu | Orta gömrük rüsumları |
|---|---|
| Spirtli içkilər və tütün məhsulları | 29.9% |
| Geyim | 15.0% |
| Meyvə və tərəvəzlər | 14.9% |
| Heyvan mənşəli məhsullar | 14.8% |
| Çay və kofe | 14.6% |
| Gündəlik təlabat malları | 13.6% |
| Şəkər | 13.5% |
| Tekstil məhsulları | 12.2% |
| Bitki və heyvan mənşəli yağlar və piylər | 8.0% |

# 6. İnflyasiyanın hesablanmasında metodoji problemlər

İnflyasiyanın hesablanmasının bir neçə forması mövcuddur. Dövlət Staistika Komitəsində də inflyasiyanın 3 formasını görə bilərik:

1. Aylıq inflyasiya
2. Orta illik inflyasiya
3. İllik inflyasiya

Aylıq inflyasiya cari aydakı İQİ-nin əvvəkli aya nisbətdə nə qədər dəyişdiyini göstərir. Orta illik inflyasiya bir il ərzində aylar üzrə qiymət dəyişimlərini 12-yə bölməklə hesablanır. İllik inflyasiya isə cari ildəki ayla ötən ilin həmin ayına olan qiymət dəyişikliklərini özündə əks etdirir.

İnflyasiyanın hesablanmasında ən geniş istifadə olunana göstərici İstehlak Qiymətləri İndeksidir. İqtisadi siyasətdə İQİ daha çox pul-kredit siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsində, qiymət proseslərinin proqnozunda da istifadə olunur. Onu əhalinin həyat səviyyəsini xarakterizə edən mühüm göstəricilər sırasına daxil edirlər. İstehlak Qiymətləri İndeksi müəyyən vaxt ərzində əhalinin ərzaq, qeyri-ərzaq və xidmətlərin ümumi səviyyəsinin dəyişməsini xarakterizə edir. İQİ-nin hesablanması üçün beynəlxalq standartlar mövcuddur, lakin hər bir ölkədə tətbiq olunan metodologiya öz növbəsində unikaldır və digər ölkələrdəki metodologiyalardan fərqlənir. Bunun əsas səbəbi həmin metodologiyaların milli iqtisadiyyatların xüsusiyyətlərinə uyğunlaşdırılmasıdır. Məhz bu səbəbdən də bir ölkədə tətbiq edilən uğurlu metodologiya başqa bir ölkədə reallığın tam əks etdirməyə bilər..

Beynəlxalq standartlara görə, İQİ-nin hesablanmasında tətbiq edilən ümumi yanaşmalar aşağıdakılardan ibarətdir:

**İstehlaka görə** hesablanmış İQİ ev təsərrüfatları tərəfindən istifadə olunan istehlak məhsulları və xidmətlərin qiymətlərində baş verən dəyişikliyi göstərir. Bir sıra ölkələrdə (Kanada, Böyük Britaniya, İslandiya, Finlandiya, İsveç) bu konsepsiya əsasında İQİ hesablandıqda mənzil kimi əsas kapitala xidmətlə bağlı dəyərlərin axını da həmin indeksə daxil edilir.

**Malik olma**: Bu konsepsiya əsasında hesablanmış İQİ ev təsərrüfatının məhsul və ya xidmətlərin dəyərini tam ödəyib ödəməməyindən və istifadə edib-etməməyindən asılı olmayaraq, sahib olduğu bütün əmtəə və xidmətlərin qiymətində baş verən dəyişikliyi göstərir. Qeyd edək ki, Avstraliya və Yeni Zelandiyada bu konsepsiyadan istifadə edilərək İQİ hesablanarkən ev təsərrüfatlarının sahib olduğu mənzilin dəyərində baş verən dəyişikliklər də nəzərə alınır.

**Ödənişə görə**: Bu yanaşma bazasında İQİ hesablanarkən statistik müşahidə dövründə ev təsərrüfatı tərəfindən ödəniş edilərək əldə olunan məhsul və xidmətlərin qiymətlərində baş verən dəyişiklik nəzərə alınır. Bu konsepsiya İrlandiya və Böyük Britaniyada geniş tətbiq olunur.

Azərbaycanda inflyasiyanın hesablanmasının əsas göstəricisi olan İQİ-yə birbaşa Dövlət Statistika Komitəsi məsuldur və bütün hesablanma prosedurlarını bu qurum həyata keçirir.[13] Azərbaycanda İQİ-nin hesablanmasına 1990-cı ildən başlanılıb. Sonradan metodologiyanın təkmilləşdirilməsi və beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Dövlət Statistika Komitəsi 1993-cü ildən 1994-cü ilin sonuna qədər Beynəlxalq Valyuta Fondu ilə proqram çərçivəsində əməkdaşlıq etməyə başlayıb. Ekspertlərin rəhbərliyi altında İQİ-nin həcm və əhatə dairəsi, çəki və istehlak səbəti dəqiqləşdirilib. Hesablamalar üçün lazım olan proqram təminatı, qiymətlərin qeydiyyat qaydaları və yeni sistem işlənib hazırlanıb.

Yuxarıda da qeyd etdiyimiz kimi inflyasiya hesablanan zaman istehlak səbətindəki ərzaq, qeyri-ərzaq və xidmətlərə istinad olunur. Azəribaycanda 1993-cü ildə Beynəlxalq Valyuta Fondu ilə birlikdə qurulan istehlak səbətinə 268 reprezentativ əmtəə və xidmət daxil idi. Daha sonra 2000-ci illərdə istehlak səbətinə 380 əmtəə və xidmət, o cümlədən 116 ərzaq malları, 204 qeyri-ərzaq malları və 60 xidmət daxil edildi. Hazırkı dövrdə isə istehlak səbətinə 585 əmtəə və xidmət daxildir. Bunlardan 151-i ərzaq, 307-si qeyri ərzaq (111-i geyim, 22-si tikinti materialları, 174-ü məişət avadanlıqları) və 127-si xidmət sahəsinə aiddir.

Seçilmiş bu əmtəə növlərinin qiymətlərinin müəyyən olunması onların hər birinin qeydiyyatı vasitəsi ilə aparılır. Belə ki, qeydiyyat üçün əmtəənin azad satışda olan faktiki qiyməti götürülür, qiymətə ƏDV, aksizlər və digər dolayı vergilər daxil olur. Konkret məhsul üçün olan hər bir neçə qiymət qeydiyyata alınır ki, bu da onların orta kəmiyyətini müəyyən etməyə imkan verir. Məhsulun orta qiyməti orta cəbri kəmiyyət kimi müəyyən edilir. Seçilmiş məhsulunun eyni tipdən olan bütün məhsullarının qiyməti toplanaraq onların sayına bölünür və orta qiyməti tapılır.

İQİ-nin hesablanmasında Laspeyres, Paşe və Fişer indekslərindən istifadə edilir.

Laspeyres indeksindən faydalanan ölkələrdə əmtəə və xidmətlərdən ibarət olan qarışıq zənbilin qiyməti konkret müddət ərzində ölçülür. Belə ki, İQİ hesablanarkən eyni bir istehlak səbətinin cari dövrdə (ayda, rübdə və ildə) qiymətləri həmin istehlak səbətinin keçən dövrdəki qiymətlərinə bölünməklə tapılır. Bu müddət sözügedən region ölkələri üzrə müxtəlifdir və o 1 ildən 10 ilədək dəyişir. Əslində Laspeyres indeksindən istifadə edən ölkələr bu suala cavab

[13] https://www.stat.gov.az/source/price_tarif/az/Metodoloji_izahlar.docx

axtarır: baza dövründə istehlakçıların xərclərindən ibarət olan əmtəə və xidmətlərin bugünkü qiyməti necə olmalıdır.

Paşe formulunda da qarışıq zənbildən istifadə edilir, lakin onun Laspeyresdən fərqi ondan ibarətdir ki, əvvəlki dövrün qiymətlərinə bölgü aparılmır. Paşe indeksinin cavab axtardığı sual isə belədir: bugünkü orta istehlaka əsasən əmtəə və xidmətlərin baza dövründə qiyməti necə olmalıdır?

Paaşe indeksinin ümumi formulası aşağıdakı kimidir:

$$I_{01} = \frac{1}{\sum_{j=1}^{M} I_{10}(j)\, w_{j1}}$$

Burada, $I_{01}$ – 0 cı dövrlə (baza dövrü) müqayisədə 1-ci dövrdə qiymət indeksi;

$Wj_1$ – isə 1-ci dövrdə əmtəə və xidmətlərin xüsusi çəkisidir.

Bir sıra ölkələrdə Fişer indeksindən də istifadə edilir və bu formul hər iki indeksin müxtəlif elementlərindən faydalanaraq həndəsi model təklif edir:

$$I_{01} = \sqrt{\text{Laspeyres x Paasche}}$$

Beynəlxalq metodologiyada Laspeyes İQİ-nin hesablanmasında əsas düstur kimi götürülsə də, bu metodda bəzi çatışmazlıqları mövcuddur.

Bunlardan biri istehlak səbətinə daxil olan məhsulların hər birinin ümumi zənbildəki xüsusi çəkisi göstəricisinin köhnə olmasıdır. Bildiyimiz kimi, cari ay üçün İQİ hesablanarkən hər bir məhsulun xüsusi çəkisi göstəricisi kimi keçən ayın rəqəmlərindən istifadə edilir. Bu isə cari ay üçün İQİ hesablanarkən həmin ay ərzində əhalinin istehlak davranışları nəzərə alınmamasına gətirib çıxarır.

Digər çatışmazlıq standart İQİ metodologiyasının əmtəələrin keyfiyyətində baş verən dəyişikliyi müşahidə etməyə imkan verməməsidir. Belə ki, rəqabət daha da güclənməsi firmaları məhsulun keyfiyyətində dəyişiklik etməyə vadar edir və bu proses çox sürətlə gedir. Ona görə də İQİ-nin standart metodologiyasında məhsulların keyfiyyətində baş verən dəyişiklik müşahidə edilə bilmir.

Növbəti çatışmazlıq İQİ-nin standart metodikasının mövsümi amillərin qiymət üzərindəki təsirini nəzərə almağa imkan verməməsidir**.** Xüsusilə İQİ qısamüddətli dövr üçün (məsələn, bir ay) hesablanırsa, onda bu problemi həll etmək çətinləşir. Yəni mövsümi xarakter daşıyan istehlak məhsullarının bəzi hallarda bazarlarda az və ya çox müşahidə edilməsi, bəzən isə heç müşahidə edilməməsi həmin dövrlər üçün hesablanan İQİ-nin adekvatlığını azaldır.

Lakin bütün bunlara baxmayaraq, dünyanın əksər ölkələrində, o sıradan da Azərbaycanda İQİ Laspeyres düsturu əsasında hesablanır. Azərbaycanda İQİ Laspeyres düsturunun modifikasiyası əsasında hesablanır:

$$I_p = \frac{\sum \frac{p_1}{p_0} \cdot q_0 \cdot p_0}{\sum q_0 \cdot p_0} \text{ və ya } I_p = \frac{\sum i_p \cdot q_0 \cdot p_0}{\sum q_0 \cdot p_0}$$

Burada

$p_0$ – baza dövründə malın qiyməti

$p_1$ – cari dövrdə malın qiyməti

$q_0$ – baza dövründəki istehlak səbətindəki i hər bir malın qiyməti

$q_0p_0$ - baza dövründəki istehlak səbətindəki i hər bir məhsulun dəyəri

DSK tərəfindən istifadə olunan metodologiya bəzi cəhətləri çıxmaqla kifayət qədər təmkildir, amma burda əsas problem metodologiyanın tətbiqi məsələləridir ki, ən yüksək səviyyəli metodologiya belə düzgün tətbiq olunmazsa istənilməyən nəticələrə gətirib çıxara bilər. Azərbaycanda İQİ-nin keyfiyyət göstəricilərinin azalmasına təsir edən amilləri bir neçə qrupa bölmək olar. Bunlardan birincisi istehlak səbətinin strukturunun və çəkilərinin müəyyən edilməsidir.

1. **İstehlak səbəbtindəki əmtəə və xidmətlərin xüsusi çəkilərinin müəyyən edilməsi metodologiyası:**

Statistika Komitəsinin verdiyi metodoloji məlumata əsasən, istehlak səbətində olan əmtəə və xidmətlərin çəkiləri əsasən əhalinin istehlakı, gəlirləri və xərclərinin seçmə müşahidə formalarından biri olan büdcə müayinələri ilə təyin edilir. Ümumilikdə metodoloji cəhətdən tədqiq etdikdə DSK-nın metodologiyasının uyğun olduğunu söyləmək olar, amma praktiki cəhətdən baxdıqda ev təsərüfatlarının büdcə müayinəsi müşahidəsinin düzgün aparılmadığı ortaya çıxır. Belə ki, ev təsərrüfatlarının əsasən varlanmış hissəsi ənənəvi olaraq seçimdən kənarda qalır. Bu iki səbəbdən baş verir. Birinci səbəb odur ki, varlı təbəqənin əksəriyyəti sorğunu cavablandırmaqdan imtina edir. İkincisi isə müəyyən səbəblərə görə şəxsi rifahının ölkə statistikasında yüksək səviyyədə qeydə alınmasında heç kim maraqlı deyil.

2. **İstehlak səbətində olan reprezentativ əmtəə və xidmətlərin sayı:**

Son üç ildə istehlak səbətində reprezentativ əmtəə və xidmətlərin sayı 585-ə çatıb. Bu artım son dövrlər inflyasiyanın ikirəqəmli olduğu dövrə təsadüf edir. Ümumiyyətlə, dünya təcrübəsinə baxdıqda bu rəqəm ABŞ-da 200, Fransada-161, Kanadada 600, Yeni Zellandiyada 315, Bolqarıstanda 514, Ukraynada 270, Gürcüstanda 311 və Qırğızıstanda 343-dür. Dünya

təcrübəsində qiymət müşahidəsini daha effektiv aparmaq üçün istehlak səbətində daxil olan əmtəə və xidmətlərin sayları azaldırlar. Ölkəmizdə isə bunun əksini müşahidə edirik. Bunun səbəbi indeksin aşağı salınmasıdır. Çünki az istehlak olunan əmtəə və xidmətlərin qiyməti ilə müqayisədə daha çox istehlak olunan əmtəə və xidmətlərin qiymətinin artım tempi daha böyükdür. Məsələn, Azərbaycanda istehlak səbətində olan əmtəə və xidmətlərin çəkilərinin böyüklüyünə görə baxdıqda ən son 165 əmtəə və xidmətin toplam çəkisi istehlak səbətində heç 1% təşkil etmir.

3. **İstehlak səbətində olan reprezentativ əmtəə və xidmətlərin çəkisi:**

İstehlak səbətinə daxil olan əmtəə  və xidmətlərin xüsusi çəkisi büdcə müayinəsi müşahidəsi əsasında aparılsa da, burda digər amillərdə rol oynayır. Digər amillər olaraq "ekspert rəyləri"nin verilməsi nəzərdə tutulur. Ümumiyyətlə, qiymət artımı az baş verən əmtəə və xidmətlər mümkün qədər daha böyük çəkilərlə istehlak səbətinə daxil edilir. Məsələn, metroda gediş haqlarının qiymətlərinin istehlak səbətindəki xüsusi çəkisinə diqqət yetirək. DSK-nın hesablamalarına görə, metroda gedişə görə ödənilən haqq əhalinin istehlak xərcləri arasında böyüklüyünə görə 18-ci yerdə durur. Bu, tamamilə qəbul edilməzdir. Birincisi, Bakıdan başqa Azərbaycanın heç bir bölgəsində metro yoxdur. İkincisi, Bakıda yaşayan əhalinin heç də hamısı mütəmadi olaraq metrodan istifadə etmir. Üçüncüsü, metronun gediş qiyməti o qədər azdır ki, ona ödənilən məbləğin toplamı ümümi büdcənin heç 1.04%-ni təşkil etmir. Bununla yanaşı,inflyasiya hesablanmasında istifadə edilən səbətin tərkibinin və mal çəkilərinin yenilənmə dövrülüyünün operativ olmaması da, real inflyasiyanın hesablanması baxımından problemlərə yol açır.

# 7. Nəticə və tövsiyələr

Tədqiqatın nəticəsi olaraq onu deyə bilərik ki, bu gün inflyasiyanının bu cür artımı əsasən xarici təsirlərin ölkəmizdə yaratdığı mənfi nəticələrlə bağlıdır. Xüsusən ərzaq inflyasiyasının sürətli artımı bunu deməyə əsas verir ki, kənd təsərrüfatı hələ də böyük həcmdə idxaldan aslı olaraq qalır. Bu isə ölkənin vətəndaşlarının ərzaqla təminetmə səviyyəsini və ərzaq təhsükəsizliyi məsələsini ön plana gətirir.

Yerli istehsalı sitmullaşdırmaq və idxaldan asılılığı azaltmaq məqsədilə hökumətin güzəştli vergi və gömrük rüsumlarının tətbiqi, kiçik və orta sahibkarlara subsidiyaların verilməsi kimi tədbirlər həyata keçirməsinə rəğmən iqtisadiyyatın idxaldan asılılığı hələ də yüksək səviyyədə qalmaqdadır. Onu da nəzərə almaq lazmdır ki, inflyasiyanın bu cür artımı təkcə dünyada baş verən qeyri-stabil durumlarla bağlı deyil, həmçinin ölkə daxilində dövlətin apardığı antiinflyasiya siyasətindəki bəzi boşluqlarla, bazar iqtisadiyyatında qiymətlərin müəyyənləşdirilməsindəki çətinliklərlə, bazarlarda inhisarların mövcudluğu ilə əlaqədardır.

Bütün bunları nəzərə alaraq, hökumətin ölkədə daxili istehsalı stimullaşdırmaqla bağlı mexanizmlərini təkmilləşdirməsi tövsiyə edilə bilər. Çünki, idxaldan yüksək asılılıq davam etdikdə, xarici iqtisadi proseslərin ölkədə qiymət artımlarına təsiri yüksək olaraq qalmaqda davam edəcək. Eyni zamanda ölkə iqtisadiyyatında rəqabət mühitinin inkişaf etdirilməsi də Azərbaycanda qiymətlərin formalaşmasına müsbət təsir imkanlarına malikdir.

Sənəd Demokratik Təşəbbüslər İnstitutunun (IDI) apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhfə verən hər kəsə dərin təşəkkürünü bildirir.

Məlumatlardan istifadə edərkən IDI-yə istinad etmək zəruridir.

Əlaqə məlumatları:

Tel: +99450 435 95 42

Web: www.idi-aze.org

E- poçt: info@idi-aze.org

Facebook: www.facebook.com/DTI.IDI